Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin
31.07.2026-cı il tarxili 3-24/3-1-f-164/2026 nömrəli
əmri ilə **təsdiq edilmişdir** (2 nömrəli əlavə).

# Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tabeliyindəki incəsənət (musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq və s.) məktəb və mərkəzlərinə direktorların və direktor müavinlərinin işə qəbulu və iş yerinin dəyişdirilməsi QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tabeliyindəki incəsənət (musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq və s.) məktəb və mərkəzlərinə direktorların və direktor müavinlərinin işə qəbulu və iş yerinin dəyişdirilməsi Qaydaları" (bundan sonra – Qaydalar) Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"nin 3.1.45-ci yarımbəndinə uyğun olaraq Azərbaycan Respublikasının Əmək Məcəlləsinin, "Təhsil haqqında" Qanunun və digər normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla hazırlanmışdır.
1.2. Bu Qaydalar Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin (bundan sonra – Nazirlik) sisteminə daxil olan incəsənət (musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq və s.) məktəb və mərkəzlərində (bundan sonra – Məktəblər) vakant direktor və direktor müavini vəzifələrinə mərkəzləşdirilmiş qaydada işə qəbulun, habelə həmin vəzifələr üzrə iş yerinin dəyişdirilməsinin təşkili qaydasını müəyyən edir.

## 2. İşə qəbulun və iş yerinin dəyişdirilməsinin prinsipləri

2.1. İşə qəbulun və iş yerinin dəyişdirilməsi aşağıdakı prinsiplər əsasında həyata keçirilir:
2.1.1. **qanunçuluq** – qanunvericiliyin və Nazirliyin hüquqi aktlarının tələblərinə riayət edilməsi;
2.1.2. **obyektivlik** – namizədin vakant vəzifəyə uyğunluğunun əvvəlcədən müəyyən edilmiş meyarlar əsasında qiymətləndirilməsi;
2.1.3. **qərəzsizlik** – namizədlə yaxın qohumluq və ya nəticəyə təsir edə biləcək digər şəxsi marağı olan şəxsin komissiyanın işində iştirak etməməsi;
2.1.4. **bərabərlik** – qanunla qadağan edilən ayrı-seçkiliyə yol verilmədən namizədlərin hüquq bərabərliyinin təmin edilməsi;
2.1.5. **peşəkarlıq** – namizədin bilik, bacarıq, idarəetmə potensialı və vəzifəyə uyğunluğunun hərtərəfli qiymətləndirilməsi;
2.1.6. **şəffaflıq** – müsabiqə şərtlərinin, proqramların və nəticələrin müəyyən edilmiş qaydada elan edilməsi;
2.1.7. **fərdi məlumatların qorunması** – namizədlərə dair məlumatların qanunvericiliyə uyğun işlənilməsi və mühafizəsi.

## 3. İşə qəbulun ümumi qaydaları

3.1. Məktəblərə direktorların və direktor müavinlərinin işə qəbulu Nazirlik tərəfindən test imtahanı və müsahibə mərhələlərindən ibarət olan müsabiqə yolu ilə təşkil edilir.

3.2. Müsabiqə proqramı, istifadə edilən ədəbiyyat siyahısı, müraciət müddəti, tələb olunan sənədlər və müsabiqənin digər təşkilati şərtləri Nazirlik tərəfindən müəyyən edilərək rəsmi informasiya resurslarında yerləşdirilir.
3.3. Direktor vəzifəsinə namizədlər ali ixtisas təhsilinə və 5 ildən az olmayaraq ümumi pedaqoji iş stajına malik Azərbaycan Respublikasının vətəndaşları arasından seçilirlər.
3.4. Direktor müavini vəzifəsinə namizədlər ali ixtisas təhsilinə və 3 ildən az olmayaraq ümumi pedaqoji iş stajına malik Azərbaycan Respublikasının vətəndaşları arasından seçilirlər.
3.5. Aşağıdakı şəxslərin müsabiqədə iştirakına yol verilmir:
3.5.1. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən;
3.5.2. ağır və ya xüsusilə ağır cinayət törətməsinə görə məhkumluğu ödənilməmiş və ya götürülməmiş;
3.5.3. fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilməsinə, habelə barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olan;
3.5.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 fevral tarixli 57 nömrəli Qərarı ilə təsdiq edilmiş siyahıya əsasən sağlamlıq vəziyyəti ilə əlaqədar pedaqoji fəaliyyət göstərməsinə yol verilməyən;
3.5.5. uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayətə görə məhkum olunmuş.
3.6. Müvafiq sahə üzrə elmi dərəcəyə və ya elmi ada malik olan və bu Qaydaların 3.3-cü və ya 3.4-cü bəndinin tələblərinə cavab verən şəxslər test imtahanına cəlb edilmədən birbaşa müsahibədə iştirak edirlər.
3.7. Müsabiqədən uğurla keçərək təyinat almayan namizədlər 1 il müddətinə ehtiyat kadrlar siyahısında saxlanılırlar. Bu müddətdə eyni vəzifə üzrə analoji vakant yer yarandıqda namizəd onun razılığı ilə, müsabiqə nəticəsində formalaşmış üstünlük ardıcıllığı gözlənilməklə həmin vəzifəyə təyin edilə bilər. Müddət başa çatdıqda namizəd siyahıdan çıxarılır.
3.8. Test imtahanının nəticəsi elan edildiyi tarixdən 2 il müddətində qüvvədədir. Bu müddətdə yeni müsabiqəyə müraciət edən və müvafiq keçid balını toplamış namizəd test mərhələsindən azad edilərək müsahibə mərhələsinə buraxıla bilər.

## 4. Test imtahanının keçirilməsi

4.1. Test imtahanının vaxtı və keçiriləcəyi yer barədə məlumat imtahana azı 30 gün qalmış Nazirliyin rəsmi informasiya resurslarında elan edilir.
4.2. Test imtahanında namizədə 100 test tapşırığı təqdim olunur, tapşırıqların yerinə yetirilməsinə 3 saat vaxt ayrılır və hər düzgün cavab 1 balla qiymətləndirilir.
4.3. Test imtahanı fəaliyyət istiqaməti üzrə normativ hüquqi aktlara dair 50, pedaqogika və pedaqoji psixologiyaya dair 15, ümumi dünyagörüşünə dair 20 və məntiqi düşünmə bacarığına dair 15 tapşırıqdan ibarətdir.
4.4. Direktor vəzifəsi üzrə 55 və daha çox, direktor müavini vəzifəsi üzrə 50 və daha çox bal toplayan namizəd test mərhələsindən uğurla keçmiş hesab olunur.
4.5. Test imtahanının nəticəsi Nazirliyin müəyyən etdiyi və imtahanı keçirən qurum tərəfindən rəsmi təqdim edildikdə etibarlı sayılır.
4.6. Müvafiq keçid balını toplayan namizədlər müsahibə mərhələsinə buraxılırlar.

## 5. Müsahibə Komissiyasının reqlamenti, müsahibənin keçirilməsi və qiymətləndirilməsi

5.1. Müsahibənin keçirilməsi haqqında elan müraciətlərin qəbulu üçün müəyyən edilmiş son müddət göstərilməklə Nazirliyin rəsmi informasiya resurslarında yerləşdirilir.
5.2. Müsahibə Komissiyası 3 nəfərdən ibarət tərkibdə Nazirlik tərəfindən yaradılır.
5.3. Komissiya üzvü namizədlə yaxın qohum olduqda və ya nəticəyə təsir edə biləcək şəxsi marağı olduqda bu barədə dərhal məlumat verir və həmin namizəd üzrə qiymətləndirmədə iştirak etmir. Bu halda Nazirlik əvəzləyici üzv müəyyən edir.
5.4. Müsahibədə iştirak edəcək namizədlərin siyahısı və şəxsi işləri müsahibə keçirilən gün müsahibədən əvvəl Komissiyaya təqdim edilir.
5.5. Müsahibə namizədin vakant vəzifəyə uyğunluğunu müəyyən etmək üçün Komissiyanın sual və tapşırıqları, namizədin cavabları və təqdimatı, habelə Komissiya üzvlərinin müşahidəsi əsasında keçirilir.
5.6. Namizədin bilik səviyyəsi əvvəlcədən elan edilmiş müsahibə proqramı əsasında qiymətləndirilir. Müsahibə proqramından kənar bilik suallarının verilməsinə yol verilmir.
5.7. Hər bir namizədlə müsahibə fərdi qaydada, Azərbaycan Respublikasının dövlət dilində və azı 20 dəqiqə aparılır.
5.8. Komissiya üzvləri müsahibəyə vaxtında gəlməli, Qaydalar, proqram və namizədin şəxsi işi ilə tanış olmalı, nəzakətli və qərəzsiz davranmalı, yalnız vəzifənin tələbləri və proqram üzrə suallar verməli, vaxt bölgüsünə əməl etməli, rabitə vasitələrini müsahibə otağına gətirməməli və müsahibə zamanı və ya ondan sonra namizədə nəticə barədə fikir bildirməməlidirlər.
5.9. Namizəd müsahibəyə vaxtında gəlməli, Komissiya üzvlərinə hörmətlə yanaşmalı, sual və tapşırıqları sonadək dinləməli, mahiyyəti üzrə cavab verməli, üzrlü səbəb olmadan otağı tərk etməməli, rabitə və digər texniki vasitələri müsahibə otağına gətirməməlidir.
5.10. Namizəd müəyyən edilmiş vaxtda gəlmədikdə Komissiya tərəfindən bu barədə akt tərtib edilir.
5.11. Şəffaflığın təmin edilməsi məqsədilə namizəd əvvəlcədən məlumatlandırılmaqla müsahibənin videoçəkilişi aparılır.
5.12. Müsahibə başa çatdıqdan sonra Komissiya üzvləri namizədin iştirakı olmadan fikir mübadiləsi aparırlar.
5.13. Komissiyanın hər bir üzvü namizədin uyğunluğunu aşağıdakı meyarlar üzrə qiymətləndirir:
5.13.1. bilik səviyyəsi – vakant vəzifə üzrə müsahibə proqramına dair biliklər;
5.13.2. peşə hazırlığı – nəzəri və qanunvericilik biliklərini, habelə informasiya texnologiyaları üzrə bilikləri tətbiqetmə bacarığı;
5.13.3. ümumi dünyagörüşü – ölkədə, dünyada və cəmiyyətdə baş verən mühüm hadisələrə dair məlumatlılıq və mülahizə yürütmək bacarığı;
5.13.4. vakant vəzifə üçün zəruri keyfiyyətlər – emosional sabitlik, məsuliyyətlilik, məqsədyönlülük, dürüstlük, özünütənqid, nüfuzetmə, təhliletmə və ünsiyyətqurma bacarıqları.
5.14. Hər bir meyar üzrə Komissiyanın hər üzvü 2-dən 5-dək bal verir. Hər üzvün verdiyi ballar toplanır, sonra üzvlərin ümumi balları cəmlənərək Komissiya üzvlərinin sayına bölünür və namizədin 20 ballıq şkala üzrə yekun müsahibə balı hesablanır. Nəticə bu Qaydaların 1 nömrəli əlavəsindəki bal cədvəli ilə rəsmiləşdirilir.
5.15. Komissiya üzvlərinin namizədə verdikləri ümumi ballar arasında 3 və daha çox bal fərq olduqda müsahibənin nəticəsi etibarsız hesab edilir və fərqli tərkibli Komissiya ilə yenidən müsahibə keçirilir.
5.16. Müsahibə üzrə 16 və daha çox bal toplayan namizəd müsahibədən müvəffəqiyyətlə keçmiş hesab olunur.

5.17. Müsahibənin nəticəsi ilə razı olmayan namizəd nəticə elan edildiyi gündən 3 iş günü ərzində apellyasiya qaydasında şikayət verə bilərlər.

## 6. Vakansiya seçimi və işə yerləşdirmə

6.1. Test və müsahibə mərhələləri üzrə uğur qazanmış namizədlər Nazirliyin müəyyən etdiyi müddətdə elan olunmuş vakansiyaları seçirlər.
6.2. Direktor vəzifəsi üzrə testdən azı 55 bal və müsahibədən azı 16 bal, direktor müavini vəzifəsi üzrə testdən azı 50 bal və müsahibədən azı 16 bal toplamış namizəd müvafiq vəzifə üzrə vakansiya seçmək hüququ qazanır.
6.3. Vakansiyalar namizədlərin seçdikləri ardıcıllıq və müsabiqə nəticələri nəzərə alınmaqla tutulur.
6.4. Eyni vakansiya üzrə namizədlərin yekun göstəriciləri bərabər olduqda test imtahanında daha yüksək bal toplamış namizədə üstünlük verilir. Test nəticələri də bərabər olduqda üstünlük aşağıdakı ardıcıllıqla müəyyən edilir:
6.4.1. şəhid ailəsinin üzvü və ya Vətən müharibəsi iştirakçısı olana;
6.4.2. müvafiq sahə üzrə elmi dərəcəsi və ya elmi adı olana;
6.4.3. direktor, direktor müavini və ya şöbə müdiri vəzifəsində azı 5 il iş təcrübəsi olana;
6.4.4. müsahibə balı daha yüksək olana;
6.4.5. ümumi pedaqoji iş stajı daha çox olana;
6.5. Təyinat alan namizəd qanunvericiliyə uyğun tələb olunan sənədləri işəgötürənə təqdim edir və yalnız əsas iş yeri üzrə işə qəbul edilir.
6.6. Direktor və direktor müavini 3 ay sınaq müddəti müəyyən edilməklə əmək müqaviləsi əsasında işə qəbul edilir. Sınaq müddəti ərzində əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.
6.7. Sınaq müddəti başa çatdıqda işçinin fəaliyyəti qənaətbəxş hesab olunarsa əmək münasibətləri davam etdirilir.

## 7. İş yerinin dəyişdirilməsi

7.1. Nazirliyin tabeliyində olan Məktəblərdə çalışan direktor və direktor müavinlərinin iş yerinin dəyişdirilməsi məsələsinə Nazirlik tərəfindən yaradılmış Komissiyası tərəfindən fərdi qaydada baxılır.
7.2. Yerdəyişmə müraciətlərinə müvafiq vakant vəzifə olduqda və Nazirlik tərəfindən bu istiqamətdə elan verildikdə baxılır.
7.3. Cari vəzifəsində 2 ildən az müddət çalışan şəxsin yerdəyişməsi aparılmır.
7.4. Nazirlik müsabiqə başa çatdıqdan sonra mövcud vakansiyalar olduğu təqdirdə yerdəyişmə müraciətlərini qəbul edir.

## 8. Qaydaların pozulmasına görə məsuliyyət

8.1. Direktorların və direktor müavinlərinin işə qəbulu və iş yerinin dəyişdirilməsi zamanı bu Qaydaların tələblərinə riayət edilmədikdə qanunvericiliyə uyğun tədbirlər görülür.
8.2. Nazirlik tərəfindən yaradılmış komissiyanın fəaliyyətində pozuntu aşkar edildikdə pozuntunun xarakterinə uyğun aşağıdakı qərarlardan biri qəbul edilir:
8.2.1. pozuntu komissiyanın bütövlükdə fəaliyyətini əhatə etdikdə komissiyanın qərarları və həmin komissiyanın apardığı qiymətləndirmələrin nəticələri ləğv edilir;
8.2.2. pozuntu yalnız müəyyən namizədlə bağlı olduqda həmin namizəd üzrə nəticə ləğv edilir və fərqli tərkibli komissiya ilə müsahibə yenidən keçirilir.
8.3. Namizəd ərizəsində göstərdiyi məlumatların və təqdim etdiyi sənədlərin doğruluğuna görə məsuliyyət daşıyır. Müsabiqənin istənilən mərhələsində məlumatların düzgün olmadığı, qəsdən təhrif edildiyi, saxta sənəd təqdim olunduğu və ya namizədin tələblərə

cavab vermədiyi aşkar edilərsə onun nəticəsi ləğv edilir. Şəxs işə qəbul edildikdən sonra belə hal aşkar edilərsə məsələyə əmək qanunvericiliyinə uyğun baxılır.
8.4. Müsabiqə tapşırıqlarının və onların həllinə dair materialların foto və video çəkilişi, internetdə, sosial şəbəkələrdə və digər açıq mənbələrdə yerləşdirilməsi, habelə həmin məlumatların media subyektlərinə və digər şəxslərə ötürülməsi qadağandır.

**“Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tabeliyindəki incəsənət (musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq) məktəb və mərkəzlərinə direktor və direktor müavinlərinin işə qəbulu və iş yerinin dəyişdirilməsi Qaydaları”na**
1 nömrəli Əlavə

**Namizədin vəzifəyə uyğunluğunun qiymətləndirilməsinə dair**

**BAL CƏDVƏLİ**

| Foto (3x4) | Namizəd:<br>Təvəllüdü:<br>Test balı:<br>Vakant vəzifənin adı: |
|---|---|

| Komissiya üzvlərinin ad, soyad və ata adı | **1. Bilik səviyyəsi** (müsahibə proqramı üzrə biliklər) | **2. Peşə hazırlığı** (nəzəri və qanunvericilik biliklərinin tətbiqi bacarığı, vəzifənin tutulma şərtlərinə uyğun olaraq informasiya texnologiyaları üzrə biliklər) | 3. **Ümumi dünyagörüşü**: (dünyada (ölkədə) və cəmiyyətdə baş verən mühüm hadisələrə dair məlumatlılıq, habelə bu hadisələrə dair mülahizələr) | 4**. Vakant vəzifə üçün zəruri olan keyfiyyətlər** (emosional sabitlik; məsuliyyətlilik; məqsədyönlülük; dürüstlük; özünütənqid; nüfuzetmə; təhliletmə; ünsiyyətqurma) |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| **Ümumi bal** | | | | |
| **Yekun bal** | | | | |

**Vəzifəyə uyğundur** □ **Vəzifəyə uyğun deyildir** □

----------------------------------------------------------------------- ---------------- --------------
müsahibə komissiyası üzvünün soyadı, adı, atasının adı imza tarix

----------------------------------------------------------------------- ---------------- --------------
müsahibə komissiyası üzvünün soyadı, adı, atasının adı imza tarix

----------------------------------------------------------------------- ---------------- --------------

müsahibə komissiyası üzvünün soyadı, adı, atasının adı imza tarix